## FİZİKİ ŞƏXSLƏRƏ TƏQDİM EDİLƏN AVTOMOBİL NƏQLİYYATI VASİTƏLƏRİNİN TAM SIĞORTASI ÜZRƏ YADDAŞ VƏRƏQƏSİ

### SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ NƏ ETMƏK LAZIMDIR?

- Sığorta hadisəsi baş verən zaman təlaşa düşməyin və unutmayın ki, avtomobiliniz "Meqa Sığorta" ASC tərəfindən sığortalanıb!
- Respublikamızın istənilən bölgəsində və vaxtdan asılı olmayaraq sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya sığorta olunan şəxs, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verərək hadisə yerini tərk etməməlidir. Sığorta hadisəsi nəticəsində "Meqa Sığorta" ASC-nin qaynar xətt nömrəsinə, yəni ***(+994 50) 275 86 89,*** eyni zamanda qanuna uyğun olaraq hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına – Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin ***102*** qaynar xətt nömrəsinə, xəsarət alan varsa, onun həyatını xilas etmək üçün Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Təcili Yardım və digər lazımi qurumlara dərhal xəbər verin!
- Sığorta şirkətinin səlahiyyətli nümayəndələri ilə əlaqə saxlayıb məsləhətləşmədən sığortalanmış əmlakı evakuasiya etməyin, çünki bu, Sizin əleyhinizə ola bilər.
- Sığorta şirkətini hadisə barədə məlumatlandırarkən aşağıda qeyd olunanlar bildirilməlidir:
- Sığortalının soyadı, adı, atasının adı;
- Sığorta şəhadətnaməsinin nömrəsi;
- Sürücünün adı, soyadı, atasının adı;
- Avtomobilin marka və modeli, dövlət qeydiyyat nişanı;
- Hadisənin baş verdiyi tarix, vaxt və yer;
- Dəymiş zərər haqqında məlumat;
- Ehtiyac olduqda digər məlumatlar.

**Sığorta ödənişindən imtinanın əsasları**

1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

- Zərər sığorta qaydalarda nəzərdə tutulmuş sığorta təminatı verilməyən hallarla bağlı olduqda;
- Sığorta qaydaların 18.1-ci bəndinin tələblərinə əməl edilməməsi nəticəsində sığortaçı hadisənin sığorta hadisəsi olub-olmamasını müəyyənləşdirmək imkanından məhrum olduqda;
- aşağıdakı hallar istisna olmaqla, sığortalı, sığorta olunan və ya üçüncü şəxs zərər dəymiş avtomobili və ya digər əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməməsi nəticəsində sığortaçını zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etdikdə:
- zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkilər üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;
- sığortaçı sığorta hadisəsi barədə sığorta Qaydalarda nəzərdə tutulmuş qaydada məlumatlandırıldıqdan 5 iş günü müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;
- digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda;
- sığortalı sığortalanmış avtomobilə dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün zəruri və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görmədikdə; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin məbləği həmin həcmdə azalmış olardı;
- sığorta Qaydaların 23.2-ci bəndi nəzərə alınmaqla, sığortalının avtomobil, sığorta olunan və (və ya) sığorta hadisəsi barəsində sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçı sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olduqda;
- avtomobilin sığortası üzrə sığortalı, sığorta olunan və ya faydalanan şəxs zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən aldıqda. Zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda, sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir;
- baş vermiş hadisə sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilmədikdə;
- sığorta müqaviləsində sığorta haqqının hissə-hissə ödənilməsinin razılaşdırıldığı və ilk hissəsinin ödənildiyi halda növbəti hər hansı hissəsinin müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, sığorta Qaydaların 14.3-cü bəndində nəzərdə tutulmuş halda isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra sığorta hadisəsinin baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda.

**QEYD: Bu YADDAŞ VƏRƏQİ məlumat xarakteri daşıyır, sığorta qanunvericiliyinin və müvafiq sığorta qaydalarının xülasəsidir və hüquqi qüvvəyə malik deyildir.**

**ƏLAQƏ VASİTƏLƏRİ:**

| | |
|---|---|
| **Yanğınsöndürmə Xidməti** | **101** |
| **AR Daxili İşlər Nazirliyi / DYP** | **102** |
| **AR Səhiyyə Nazirliyi Təcili Yardım** | **103** |
| **AR Fövqəladə Hallar Nazirliyi** | **112** |

**<u>QEYD:</u> Bu YADDAŞ VƏRƏQİ məlumat xarakteri daşıyır, sığorta qanunvericiliyinin və müvafiq sığorta qaydalarının xülasəsidir və hüquqi qüvvəyə malik deyildir.**